**PRESS-RELİZ**

## Elmin İnkişafı Fondu Avropa İttifaqının "HORİZON-2020" Proqramında bir qurum kimi uğurla iştirak edir

Elmin İnkişafı Fondunun beynəlxalq əlaqələrinin gücləndirilməsi, elm siyasəti, qiymətləndirmə və ekspertiza üzrə müzakirələrdə iştirak etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev Avropa İttifaqının Tədqiqat və innovasiyalar üzrə "HORİZON-2020" Proqramı çərçivəsində fəaliyyət göstərən "Black Sea Horizon" layihəsi ekspertlərinin Avstriyanın paytaxtı Vyana şəhərində 16-17 iyun 2016-cı il tarixlərində keçirilmiş Baş Assambleyasının iclasında iştirak edib. Elmin inkişafı Fondu "Black Sea Horizon" layihəsində (No 645785) qurum kimi fəal iştirak edir. 19 layihə partnyorunun iştirak etdiyi iclasda ötən bir il yarım ərzində görülmüş işlər və növbəti dövr üçün planlar müzakirə edilib, elmi diaspora, ekspertlər bazasının təkmilləşdirilməsi və onların potensialından müxtəlif ölkələrin qrant müsabiqələri üçün istifadə imkanları, vebinarların keçirilməsi, elm-biznes münasibətləri, innovasiya və elmi-iqtisadi klasterlər, layihələrin idarə olunması və maliyyələşdirilməsi şərtləri, Avropa Birliyi ilə Şərq Tərəfdaşlığı Ölkələri arasında Elm-Texnologiya-İnnovasiya sahəsində əməkdaşlıq proqramı üzrə məsləhətləşmələr də aparılıb.

"Black Sea Horizon" layihəsi üzrə Avstriyada fəaliyyət göstərən Sosial İnnovasiyalar Mərkəzində (ZSİ) proqram rəhbəri Martin Felix Gajdusek ilə bilateral müzakirələr də aparılıb.

Baş Assambleyanın növbəti iclası 2017-ci ildə Afinada baş tutacaq. Elmin İnkişafı Fondunun aktiv fəaliyyəti və təcrübəsi nəzərə alınmaqla Avropa Tədqiqat Zonaları Şəbəkəsinin (ERA-NET)tematik proqramları üzrə növbəti elm siyasəti üzrə yüksək səviyyəli ekspertlər iclasının Bakı şəhərində 2016-cı ilin payızında təşkil edilərək keçirilməsi barədə Baş Assambleya tərəfindən qərar qəbul edilib.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**